Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 143 (7870) BAZAR, 1 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik






# Azərbaycana nüfuz gətirən möhtəşəm layihələr

**Dövlətin dünyadakı yeri və nüfuzu təkcə siyasi amillərlə ölçülmür. Həm də iqtisadi sahədəki nailiyyətləri, vətəndaşlarının sosial rifahı hər bir ölkə üçün beynəlxalq imic baxımından böyük əhəmiyyət kəsb edir.**

Bu gün müstəqil və qətiyyətli siyasi kursla beynəlxalq aləmdə yüksək nüfuzu olan Azərbaycana həm də həyata keçirdyi enerji siyasətinə, bölgədə reallaşdırdığı qlobal nəqliyyat layihələrinə görə ehtiramla yanaşırlar.

## Etibarlı siyasi və iqtisadi tərəfdaş

Hələ 24 il əvəl "Əsrin müqaviləsi" imzalananda Azərbaycan müstəqilliyinin ilk addımlarını atırdı. Respublikamızın hansısa beynəlxalq uğuru yox idi. Ancaq Heydər Əliyev şəxsiyyətinin ucalığı, onun başladığı uğurlu və müdrik siyasət dünyanın iri neft şirkətlərini Xəzərin neft yataqlarının işlənilməsinə cəlb etdi. Və bu tarixi hadisə həm respublikamızın müstəqilliyinin möhkəmlənməsində, həm dünyada tanınmasında, həm də inkişafı istiqamətində ilk və uğurlu addım oldu.

24 il dövlətin tarixi baxımından uzun zaman kəsiyi sayılmır. Heç inkişafa nail olmaq üçün bu dövr yetərli deyil. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi də göstərir ki, onlar bu səviyyəyə gəlib çatmaq üçün hansı onilliklərdən keçib gəliblər. Azərbaycan üçün isə müstəqillik tariximizdə ilk beynəlxalq uğur olan "Əsrin müqaviləsi"nin imzalanmasından sonra ötən dövr olduqca möhtəşəm nailiyyətlərlə əlamətdardır. Bu dövrdə Azərbaycan enerji siyasətində qarşıya qoyduğu bütün hədəfləri reallaşdırdı, ən əsası, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri çəkildi. Bu illərdə Azərbaycan kosmik dövlətə çevrildi, BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərdi.

Bütün bu hadisələr həm respublikamızı etibarlı tərəfdaş kimi tanıtdı, həm müstəqilliyimizin əsaslarını daha da bərkitdi, həm də dünyadakı mövqelərini möhkəmləndirdi. Əlbəttə, beynəlxalq miqyasda qazandığımız yüksək etimadın kökündə dayanan əsas səbəb ilk növbədə, ölkəmizin səmərəli siyasi və iqtisadi partnyor olması, dünyanı narahat edən hər bir məsələdə qətiyyətli və prinsipial mövqe tutması, sülhə və əmin-amanlığa layiqli töhfələr verməsidir. Azərbaycan Ordusunun bölmələri ayrı-ayrı ölkələrdə sülhün və əmin-amanlığın təmin olunmasında iştirak edir, beynəlxalq terrorçuluqla mübarizədə öz sözünü deyir. Eyni zamanda, Azərbaycan bir sıra Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında əsas tərəfdaşlardandır. Ölkəmiz beynəlxalq miqyaslı bütün məsələlərdə üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməklə etibarlı tərəfdaş olduğunu hər zaman nümayiş etdirmişdir. Bunun da məntiqi nəticəsi olaraq Azərbaycanın beynəlxalq nüfuzu sürətlə yüksəlib.

## Dünyada və Qafqazda söz sahibi

Hazırda davamlı inkişaf dövrünü yaşayan Azərbaycanın Cənubi Qafqazın lider dövlətinə çevrilməsi və bu statusu uğurla daşıması bütün dünyanın, xüsusən bu regionu özünün iqtisadi mənafeyi baxımından vacib tərəfdaşı kimi görən Avropanın qəbul etdiyi inkarolunmaz reallıqdır. Elə buna görə təsadüfi deyil ki, Cənubi Qafqazı əhatə edən hər hansı beynəlxalq layihənin Azərbaycanın maraqlarını nəzərə almadan həyata keçirilməsi mümkün deyil. Azərbaycanla hesablaşır, məsləhətləşir və hər bir əməkdaşlıq məsələsində əsas tərəfdaş kimi qəbul edirlər. Son illər başa çatan layihələr, təməli qoyulan yeni əməkdaşlıq telləri bunu bir daha sübut edir.

Ötən ilin sentyabrında Bakıda imzalanan yeni neft müqaviləsi Azərbaycanın enerji diplomatiyasının növbəti böyük uğuru idi. Cəmi üç həftə sonra Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal miqyasda söz sahibinə çevrilməsinin növbəti təsdiqi oldu. Bu hadisə göstərdi ki, indi Azərbaycan özünü təkcə neft və qaz hasil edən ölkə kimi deyil, həm də Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən nəqliyyat qovşağı və logistika mərkəzi kimi təqdim edir. Reallıq da ondan ibarətdir ki, son illər ölkəmizin nəqliyyat infrastrukturunda həyata keçirilən yenidənqurma işləri - Bakıda və ölkə regionlarında beynəlxalq hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi bu sahənin inkişafına təkan verib, Asiya ilə Avropanın qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırıb.

Bu günlərdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi Azərbaycanın yerləşdiyi bölgədəki aparıcı rolunu bir qədər də yüksəltdi. Bu layihənin başa çatdırılması göstərir ki, ölkəmizdə güclü nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması istiqamətində qarşıya qoyulan vəzifələr uğurla reallaşır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi layihəsinin uğurla reallaşması ilə Azərbaycanın tranzit imkanlarının genişlənməsi baxımından yeni mərhələ başlayır. Çünki bununla ölkəmiz gələcəyə hesablanmış daha bir möhtəşəm addım atdı. Bu limanın işə salınması nəticəsində Azərbaycanın tranzitdən gələn gəlirləri əhəmiyyətli dərəcədə artacaq, respublikamız loqistik mərkəz kimi mövqelərini daha da möhkəmləndirəcək. Ən əsası isə gətirəcəyi bütün iqtisadi dividendlərlə yanaşı, bu liman kompleksi Azərbaycanın regionda söz sahibi statusunu möhkəmləndirən mühüm faktordur.

*Ardı 6-cı səh.*

## Kanadanın General-Qubernatoru zati-aliləri xanım Jüli Peyetə

Hörmətli xanım General-Qubernator!

Milli bayramınız - Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə və dost Kanada xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2018-ci il*

## Burundi Respublikasının Prezidenti zati-aliləri cənab Pyer Nkurunzizaya

Hörmətli cənab Prezident!

Burundi Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2018-ci il*

# Gücün zəhmi



















**Bakıda keçirilən hərbi parad işğalçı Ermənistana gücün və qəzəbin zəhmini göstərdi! Azadlıq meydanına zəhmlə çırpılan əsgər çəkmələri Azərbaycan Ordusunun döyüş cəngisi kimi səsləndi!**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə paytaxtda keçirilən təntənəli hərbi paradda nümayiş etdirilən ən müasir hərbi texnika, gəmilər, uçuş vasitələri, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları Bakıdan İrəvana verilən sərt ultimatum idi!

Prezident, Ali Baş Komandan İlham Əliyev Azadlıq meydanındakı nitqində bir daha Dağlıq Qarabağın əzəli və tarixi Azərbaycan torpağı olduğunu bəyan etdi, bütün beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və dəstəklədiyini dedi: "BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir və orada da göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib".

Dövlət başçısının nitqi and kimi möhtəşəm, Ali Baş Komandanın son sözü kimi kəsərli və qətiyyətli idi: "Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək!"

Azərbaycan dövləti müstəqilliyin ilk onilliyində əsrlər boyu arzusunda olduğu güclü ordunu yarada bildi. Paytaxtın baş meydanında keçirilən hərbi paradda biz bu möhtəşəm gücün əzəmətini və zəhmini gördük. Əsrlər boyu vassal qucağında yırğalanıb Qafqazı qan çanağına çevirən, əbədi müharibələrin girdabına sürükləyən düşmən də qüdrətimizi gördü. Diksiniblər, xofdadırlar. Etiraf etməsələr də, yaxşı bilirlər ki, ordumuz dünyanın güclü orduları sırasındadır.

Qarətlə, talanla məşğul olan, xalqına və sülhə düşmən kəsilən, faşist ideologiyası ilə zəhərlənən cinayətkar erməni generalları Dağlıq Qarabağ ermənilərini öz torpaqlarında, öz evlərində köləyə, məhbusa çevirdilər. Vəd olunan azadlıq əvəzinə, Azərbaycanın tərkibində cənnət kimi çiçəklənən Dağlıq Qarabağ cəhənnəmə çevrildi. Bu gün Azadlıq meydanından keçən ordumuz cinayətkar faşist, quldur dəstələrindən fərqli olaraq dinc Qarabağ ermənilərinə həsrətlərində olduqları azadlığı qaytarmaq əzmindədir və qaytaracaq da!

Azərbaycan xalqına qarşı etnik təmizləmələr aparan, Xocalı soyqırımı törədən faşist-quldur dəstələri, qonşularına ərazi iddiaları ilə azğınlaşan separatçı rejim Qafqazda sülhün əbədi düşmənidir. İrəvanda hakimiyyət dəyişməsi bölgəyə sülhü gətirməyəcək. Sülhün açarı ədalətli haqq savaşına çıxan Azərbaycan Ordusunun əlindədir.

Bu ordu 20 ildən artıqdır ki, atəşkəsə riayət edir, səbirlə məsələnin sülh yolu ilə həllini gözləyir. Ermənilərsə müvəqqəti atəşkəs sazişini onları qane edən son nəticə kimi saymaqdan zövq alır, bunu qələbələrinin bir parçası kimi təqdim edirlər. Reallıqda isə atəşkəs illərində erməni ordusunun generalları talana, oğurluğa, quldurluğa qurşandı. Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edildi, təlimlərdə peşəkarlığını artırdı. Ölkədə hərbi təyinatlı məhsulların istehsalına start verildi, son illər ərzində 20-dən çox hərbi zavod yaradıldı, istehsal olunan hərbi təyinatlı müxtəlif məhsulların sayı 1200-ə çatdırıldı, hərbi texnika və məhsulların ixracına start verildi. Eyni zamanda, bir çox ölkələrdən ən müasir silah alındı. Bu siyahı sadalamaqla bitmir. Yüzlərlə zirehli texnika, gözətçi və hərbi gəmilər, döyüş təyyarələri, helikopterlər, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri ordumuzun simasını büsbütün dəyişdi.

*Ardı 4-cü səh.*

# Aqrar sektorda strateji islahatlar inkişafa köklənib

**Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi təsdiq edilmişdir. Sənəddə ən vacib məqamlardan biri kənd təsərrüfatına uzunmüddətli strateji baxışın işlənilib hazırlanması ilə bağlıdır.**




Bu strateji baxış ilkin mərhələdə 2020-ci ilədək Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalının dayanıqlı inkişaf prinsiplərinə, ərzaq təhlükəsizliyinin təminatına, iqtisadiyyatın şaxələndirilməsinə və kənd yerlərində sosial rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli əlverişli mühitin yaradılmasını qarşısına məqsəd qoyur.

Strateji Yol Xəritəsində dövlət yardımlarının effektivliyinin artırılması, bazarda rəqabətin daha da yaxşılaşdırılması və əlverişli biznes mühitinin formalaşdırılması önə çəkilir. Qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, məhsul istehsalı, satışı və istehsal vasitələri bazarında rəqabət mühitinin inkişaf etdirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi və bazara çıxış imkanlarının yaxşılaşdırılması, informasiya-məsləhət xidmətlərinin inkişafı və digər istiqamətlərdə kompleks işlərə artıq start verilmişdir. Yol xəritəsində nəzərdə tutulduğu kimi, təbii resursların səmərəli istifadəsi elmi əsaslarla aparılır, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi ucun ciddi tədbirlər görülür, ərzaq təhlükəsizliyinin dayanıqlığının təmin edilməsi istiqamətində aqrar islahatlar aparılır, qeyri-neft sektoru şaxələndirilir, kənd təsərrüfatının ənənəvi sahələri dirçəldilir.

Xəbər verildiyi kimi, may ayının əvvəlində Bakıda XXIV Beynəlxalq Qida Sənayesi, XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya sərgiləri keçirilmişdir. Bu tədbirdə iştirak edən xarici alimlər və mütəxəssislər Azərbaycanın aqrar sektorunda aparılan islahatları, tətbiq edilən yenilikləri yüksək qiymətləndirmiş və yerli sahibkarlarla ciddi əməkdaşlıqda maraqlı olduqlarını bildirmişlər. Göründüyü kimi, ölkəmizin aqrar sektorunda aparılan islahatlar, yeniliklər kənd təsərrüfatına investisiyaların cəlb edilməsinə də müsbət təsir göstərir.

Rəsmi məlumatlara görə, son 14 ildə Azərbaycan iqtisadiyyatına qoyulmuş xarici və yerli investisiyaların həcmi 231 milyard dollardır. Bu illər ərzində müxtəlif sahələrə yatırılan xarici birbaşa investisiyaların həcmində ciddi artım müşahidə edilir. 2010-cu ildə 3,6, 2011-ci ildə 4,2, 2012-ci ildə 5,3, 2013-cü ildə 5,9, 2014-cü ildə 8,1, 2015-ci ildə 7,1 milyard dollardan artıq birbaşa xarici sərmayə qoyulmuşdur. Bir faktı da nəzərə çatdıraq ki, ölkə iqtisadiyyatına qoyulan sərmayələrin 93 faizi son 14 ilin payına düşür. Bu investisiyaların bir qismi isə aqrar islahatların aparılmasına yönəlmişdir.

*Ardı 6-cı səh.*

# "Xırmana girməyincə taxıl sənin deyil"

## İsmayıllıda biçin getdikcə sürətlənir

**Son qış quraq keçməsi ilə əvvəlkilərdən kəskin şəkildə fərqləndi. Sonradan baharın da ilk aylarının az yağmurlu, yaya keçid dövründə isə dolu ilə müşahidə olunan aramsız yağan leysan yağışları təsərrüfatlara ciddi ziyan vurdu.**



Beləliklə, aqrar sektorun bütün sahələri təbiətin ərköyünlüyündən bu və ya digər dərəcədə "nəsibini" aldı. Meyvəçilikdən tutmuş baramaçılığa, taxılçılığa kimi hər sahədə məhsuldarlıqla bağlı əvvəldən verilən proqnozlar şübhə altına düşdü.

Bəs mürəkkəb relyefi ilə yanaşı, eyni zamanda, fərqli iqlim qurşağına malik İsmayıllıda əkin-biçin və ümumilikdə məhsuldarlıqla bağlı vəziyyət necədir? Müsahibimiz İsmayıllı Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi vəzifəsini icra edən Həsən Həsənovdur. Onunla rayonun ən iri təsərrüfatlarından olan Nikitin adına kolxoza yollanırıq. O, yolüstü aqrar sektorun, xüsusən də taxılçılığın vəziyyətini şərh etdi. Dedi ki, İsmayıllının 207 min 372 hektar torpaq sahəsindən 113 min 973 hektarı kənd təsərrüfatına aiddır. Bunun 32 min 914 hektarı əkin, 1800 hektarı çoxillik əkinlər, 351 hektarı dincə qoyulmuş, 2427 hektarı biçənək, 50 min 895 hektarı örüş, 25 min 586 hektarı yay otlaq sahəsindən ibarətdir.

*Ardı 6-cı səh.*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149; Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1076-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 190.3.7-ci maddədə “10,0” rəqəmləri “20,0” rəqəmləri ilə əvəz edilsin;

1.2. 190.3.8-ci maddədə “4,0” rəqəmləri “12,0” rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu qanun 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2018-ci il*

## “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1186-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1186-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyun 2018-ci il*

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktının icrası ilə əlaqədar **qərara alır:**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12, maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392; Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD və 1 may tarixli 1114-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4-cü maddəyə “Azərbaycan Respublikasının Prezidentinə” sözlərindən sonra “, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə” sözləri əlavə edilsin.

2. 4.1.9-cu və 27.1-ci maddələrdə “milliyyətindən” sözü “etnik mənsubiyyətindən” sözləri ilə əvəz edilsin.

3. 11.1.2.1-ci maddəyə “köməkçisinin vəzifəsi” sözlərindən sonra “, Azərbaycan Respublikasının vitse-prezidentinin köməkçisinin vəzifəsi” sözləri əlavə edilsin.

4. 22.7-ci maddənin üçüncü cümləsinə “maddə” sözündən sonra “Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri,” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1171-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1171-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 8-ci bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 649; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1053; 2008, № 6, maddə 455; 2012, № 11, maddə 1067; 2015, № 7, maddə 811) 8-ci maddəsinin VIII hissəsinə “Fövqəladə” sözündən sonra “və ya hərbi” sözləri əlavə edilsin və həmin hissədə “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada” sözləri “Fövqəladə vəziyyət haqqında” və “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1105-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018 ci il 1 may tarixli 1105-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 23-cü bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82, № 11, maddələr 1258, 1292; 2016, № 1, maddə 40, № 5, maddə 837, № 12, maddə 1986; 2017, № 12 (I kitab), maddə 2254; 2018, № 1, maddə 16) 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. ikinci-dördüncü hissələr müvafiq olaraq üçüncü-beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Hərbi vəziyyət dövründə “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq kütləvi informasiya vasitələrinin məlumat və materialları hərbi senzuradan keçirilə, habelə hərbi vəziyyət tətbiq edilən ərazidə (ərazilərdə) kütləvi informasiya vasitələrinin xüsusi fəaliyyət rejimi tətbiq edilə bilər.”

2. üçüncü hissəyə “Fövqəladə” sözündən sonra “və hərbi” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1107-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1107-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 23-cü bəndlərini rəhbər tutaraq, “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 583; 2004, № 1, maddə 10; 2005, № 4, maddə 278, № 6, maddə 469; 2006, № 11, maddə 932, № 12, maddə 1005; 2007, № 6, maddə 560, № 8, maddə 749, № 11, maddə 1053; 2009, № 6, maddə 394; 2010, № 7, maddə 600; 2011, № 2, maddə 70; 2015, № 4, maddə 354; 2016, № 12, maddə 1987) 2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci maddədə “Teleradio” sözü “Bu qanunun 2.2-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla teleradio” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 2.2-1-ci maddə əlavə edilsin:

“2.2-1. Hərbi vəziyyət dövründə “Hərbi vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq teleradio məlumat və materialları hərbi senzuradan keçirilə, habelə hərbi vəziyyət tətbiq edilən ərazidə (ərazilərdə) teleradio yayımının xüsusi fəaliyyət rejimi tətbiq edilə bilər.”.

3. 2.5-ci maddəyə “Fövqəladə” sözündən sonra “və hərbi” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1108-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018 ci il 1 may tarixli 1108-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2018-ci il*

## Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 913-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 38-1-ci maddə ləğv edilsin.

2. VII fəslin adından və 59-cu maddədən “və müvafiq inzibati xətalara görə inzibati cərimə” sözləri çıxarılsın.

3. 56-cı maddənin üçüncü hissəsi və 57-ci maddənin ikinci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

## “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1169-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1169-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Konsul Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyun 2018-ci il*

## "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 18-ci bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 671; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 148, № 11, maddə 683; 2004, № 5, maddələr 312, 319; 2005, № 7, maddə 576; 2006, № 3, maddə 219, № 5, maddə 385, № 11, maddə 933; 2017, № 12, I kitab, maddə 2196) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin ikinci hissəsinin beşinci abzasında "tətbiq edilməsi" sözləri "elan edilməsi, qüvvədə olma müddətinin uzadılması" sözləri ilə əvəz edilsin.

2. 5-ci maddənin ikinci hissəsinin on ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq cəbhəboyu zonanın (ərazinin) hüdudlarını və hərbi idarəetmə orqanlarının səlahiyyətlərini müəyyən edir, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması və ya ləğv edilməsi haqqında fərmanı təsdiq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;".

3. 14-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydası, hərbi vəziyyət dövründə hüquq və azadlıqların təminatı, habelə hərbi vəziyyətlə bağlı digər məsələlər "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1109-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018 ci il 1 may tarixli 1109-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 10-cu bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226, № 5, maddə 379; 2001, № 11, maddələr 676, 683; 2004, № 6, maddə 397; 2005, № 1, maddə 5, № 8, maddə 684; 2006, № 11, maddə 922; 2007, № 5, maddə 437, № 11, maddə 1049; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 672; 2013, № 1, maddə 17; 2014, № 10, maddə 1172; 2018, № 1, maddə 6) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adına "xitam verilməsi" sözlərindən sonra "və ya fəaliyyətinin dayandırılması" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Hərbi vəziyyətin elan edilməsinə səbəb olmuş halların aradan qaldırılmasına və müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə mane olan həmkarlar ittifaqları təşkilatlarının fəaliyyəti hərbi vəziyyət başa çatanadək dayandırıla bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12, I kitab, maddə 2271; Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1126-VQD nömrəli Qanunu) 34-cü maddəsinə aşağıdakı məzmunda 5-1-ci bənd əlavə edilsin:

"5-1. Əkin yerinin yandırılması qadağandır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2018-ci il*

## "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1158-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1158-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1100-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1100-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyun 2018-ci il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 8-ci və 23-cü bəndlərini rəhbər tutaraq, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12, I kitab, maddə 2215; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 928-VQD nömrəli, 29 dekabr tarixli 966 nömrəli Qanunu) 12-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. I hissəyə aşağıdakı məzmunda 2-2-ci bənd əlavə edilsin:

"2-2) hərbi vəziyyət rejimi tətbiq edildikdə;".

2. II hissənin üçüncü cümləsinə "yalnız" sözündən sonra və VI hissənin birinci cümləsinə "fövqəladə" sözündən əvvəl "hərbi vəziyyət rejiminin tətbiqi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1106-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018 ci il 1 may tarixli 1106-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əziz Qardaşım cənab İlham Əliyev!

Sizə və ailənizə möhkəm cansağlığı, yüksək əhvali-ruhiyyə diləyirəm. Ramazan ayını əmin-amanlıq içərisində başa çatdıran qardaş Azərbaycan xalqının daha neçə belə bayramlara qovuşmasını Allah-Təaladan arzu edirəm.

Bu ilin aprel ayında keçirilən seçkilərdə Azərbaycan xalqının etimad göstərərək Sizi yenidən Prezident seçməsini böyük məmnunluq hissi ilə qarşıladım. Ulu öndərimiz mərhum Heydər Əliyevin bu günə qədər müvəffəqiyyətlə davam etdirdiyiniz siyasətini eyni inam və qətiyyətlə daha da inkişaf etdirəcəyinizə əmin olaraq təbriklərimi çatdırıram. Qarabağ başda olmaqla mürəkkəb məsələlərin öhdəsindən gəlməyinizi, Azərbaycanın müstəqil, sabit və rifah içərisində yaşayan ölkə olaraq qazandığı uğurlarının yüksələn xətlə davam etməsini arzulayıram.

2017-ci il aprelin 11-12-də Bakıya səfərim zamanı mənə və məni müşayiət edən şəxslərə göstərdiyiniz qonaqpərvərlik, qədirbilənlik və alicənablığı unutmuram. Həmin səfər zamanı Sizə bəhs etdiyim təhsil işlərinə və xüsusilə anadan olduğum Kayseri şəhərində mənim adıma olan universitet ilə maraqlanmağınız və dəstək verməyinizə görə təşəkkürümü bildirirəm. Minnətdarlığımızın kiçik nişanəsi olaraq 375 tələbənin yaşadığı yataqxanaya böyük şərəflə ulu öndərimiz Heydər Əliyevin adını verdik. Bu yataqxananın xidmətindən istifadə edən tələbələr müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan ulu öndəri tanıyacaq və minnətdarlıq hissi ilə yad edəcəklər.

Fürsətdən istifadə edərək, Sizi və dəyərli həyat yoldaşınız Mehriban xanımı bayramlar münasibətilə bir daha təbrik edirəm.

Əziz Qardaşım cənab İlham Əliyev, zati-alinizə və Azərbaycan xalqına xoşbəxtlik arzu edirəm.

*Dərin hörmətlə,*

***Abdullah GÜL,***
***Türkiyə Respublikasının 11-ci Prezidenti***

# Azərbaycanın dövlətçilik tarixinə həsr olunmuş beynəlxalq elmi konfransda 90-dan çox məruzə dinlənilib

"Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsi" mövzusunda Gəncə şəhərində keçirilən beynəlxalq elmi-praktik konfrans işini yekunlaşdırıb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutu, Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi, Türkiyənin Azərbaycandakı səfirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkil etdikləri konfransın açılışı Heydər Əliyev Mərkəzində keçirilib.

Konfransda Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi - Prezidentin köməkçisi, tarix üzrə fəlsəfə doktoru, professor Dilarə Seyidzadə, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova, Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Milli Məclisin deputatları, respublikamızda fəaliyyət göstərən bir çox elm və təhsil müəssisələrinin rəhbərləri, tanınmış elm xadimləri iştirak ediblər. Həmçinin 20 ölkədən (Rusiya, Pakistan, Hindistan, Gürcüstan, Misir, Özbəkistan, Şimali Kipr, Ukrayna, Belarus, Moldova, Polşa, Albaniya, Qazaxıstan və sair) ümumilikdə 40-a yaxın tarixçi-alim də beynəlxalq konfransda təmsil olunub.

Konfransın bölmələr üzrə elmi məruzələri hazırda Azərbaycan Dövlət Aqrar Universitetinin əsas binası olan, vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk iclaslarının keçirildiyi məkanda dinlənilib.

Üç gün ərzində davam edən konfransda 91 yerli və xarici ölkə alimlərinin Azərbaycan Xalq Cümhuriyyətinin ayrı-ayrı sahələrinə dair elmi məruzələri, həmçinin yeni mənbələr və arxiv sənədləri əsasında təqdim etdikləri araşdırmalar, səsləndirilən bir çox tarixi faktlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov son illər Azərbaycanda elmin bütün sahələri kimi tarix elminin də inkişaf etdiyini, tarixçi alimlərin səyi ilə aparılan elmi araşdırmalar nəticəsində qiymətli elmi faktların aşkarlandığını söyləyib.

Yaqub Mahmudov deyib ki, qısa müddətdə AMEA-nın Tarix İnstitutunda Azərbaycan tarixinin müxtəlif dövrlərini, xüsusən 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra böyük imperiyaların işğalçılıq siyasəti nəticəsində xalqımızın başına gətirilən faciələri, XX əsrin əvvəllərindən başlayaraq çar Rusiyasının havadarlığı ilə erməni-daşnak qüvvələrinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlarını, deportasiya və işğal kimi dəhşətli tarixi gerçəklikləri özündə əks etdirən çoxsaylı elmi əsərlər yazılıb və müxtəlif dillərdə nəşr olunub.

Tarix üzrə fəlsəfə doktoru, professor, Azərbaycan Xalq Cümhuriyyəti tarixi problemini milli tarixşünaslığımıza gətirən görkəmli alim, Prezident Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə hələ Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə cümhuriyyət tarixinin araşdırılmasına cəhd göstərilməsini milli tarixşünaslıq elmimiz üçün böyük nailiyyət kimi dəyərləndirib.

Bildirilib ki, XX əsrin əvvəllərində dərin siyasi və iqtisadi böhran keçirən çar Rusiyasında elm, texnika və texnologiya zəif inkişaf etsə də, bir çox sahələrdə olduğu kimi, ali təhsildə də imperiya tərkibinə daxil olan xalqların nümayəndələrinə, xüsusən türk-müsəlman əhalisinə etimad göstərilmirdi. Mütləqiyyətin yaratdığı çətinliklərə baxmayaraq, dövrün açıq fikirli gəncləri və onların mənsub olduqları zadəgan ailələri övladlarının savadlanmasına, əsasən də ali təhsil almasına böyük səy göstərirdilər.

Professor Dilarə Seyidzadə qeyd edib ki, XIX əsrin ikinci yarısında Bakı və onun ətrafındakı neft yataqlarının yerli və xarici sahibkarlar tərəfindən istismar edilməsinə başlanıldı. Həmin dövrdən etibarən yeni neft quyularının qazılması, texnoloji yeniliklərin tətbiqi, eləcə də neft sənayesinin inkişafı üçün geniş infrastrukturun qurulmasının zəruriliyi ixtisaslı gənc kadrlara tələbatı artırırdı. Həmçinin neft satışından gələn gəlirlər hesabına irihəcmli kapitala malik olan milli burjuaziya həm yaratdıqları yeni istehsal və xidmət sahələrində işləyə biləcək ixtisaslı gənc kadrlara böyük ehtiyac hiss edirdi, həm də özləri Azərbaycanda elmin, təhsilin və mədəniyyətin inkişafı istiqamətində təşəbbüsləri dəstəkləyərək həmin sahələrin inkişafına maliyyə yardımı göstərirdi. Məhz bu iki amil və digər səbəblər sonrakı dövrlərdə Azərbaycan gənclərinin Rusiyanın və Avropanın qabaqcıl universitetlərində təhsil almasına və dövrün ziyalı gəncləri kimi yetişməsinə səbəb oldu.

Daha bir maraqlı faktı konfrans iştirakçılarının diqqətinə çatdıran professor Dilarə Seyidzadə vurğulayıb ki, çar Rusiyasının türk-müsəlman gənclərə etimadsızlığı və onların öz istəklərinə uyğun ixtisas seçimindən kənarda qalması səbəbindən azərbaycanlı gənclər əsasən hüquq təhsilinə meyil edirdilər. Elə bu amil də sonrakı illərdə mütləqiyyətin milli ucqarlardakı işğalçılıq planlarının əksinə olaraq, çar üsuli-idarəsinin inqilab yolu ilə devrilməsindən sonra Azərbaycanda demokratik dəyərlərin bərqərar edilməsini, xalqın etimadına və hakimiyyətin bölgü prinsipinə əsaslanan hüquqi, dünyəvi, demokratik və parlament ənənəsinə əsaslanan mütərəqqi dövlətin yaradılmasını şərtləndirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında milli ziyalıların fədakar əməyini diqqətə çatdıran professor Dilarə Seyidzadə qeyd edib ki, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Xəlil bəy Xasməmmədov kimi ziyalıların siyasi fəaliyyəti yalnız Azərbaycanla məhdudlaşmayıb. Çünki bu şəxslər siyasi fəaliyyətə başladıqları ilk gündən çar Rusiyasının milli ucqarlardakı siyasətini, xüsusən imperiyanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi ayrı-seçkilik və soyqırımı siyasətini tənqid edirdilər. İstər İsmayıl xan Ziyadxanovun Rusiya Dövlət Dumasında cəsarətli çıxışı, istərsə də Əlimərdan bəy Topçubaşovun Rusiya imperiyasının türkdilli və müsəlman əhalisinin hüquqlarının tanınması və həmin millətlərin siyasi cəhətdən maariflənməsi istiqamətindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edib.

"Azərbaycan Xalq Cümhuriyyəti dövrü hər bir azərbaycanlının qürur mənbəyidir. Hazırda dünyanın demokratik ölkələri hələ 100 il bundan əvvəl Azərbaycan xalqının demokratik inkişaf yolu seçdiyinə, bütün Şərq aləmində ilk dəfə parlamentli respublika yaratdığına və qadınlara kişilərlə bərabər seçki hüququ verdiyinə, siyasi fəaliyyəti dövründə bir çox mütərəqqi addımlar atdığına, nəhayət, müasir Azərbaycan Respublikasının özünü cümhuriyyətin siyasi varisi elan etdiyinə görə bizə sivil dünyanın siyasi-mədəni inkişafına böyük töhfələr bəxş etmiş xalqı kimi yanaşırlar", - deyə Dilarə Seyidzadə bildirib.

Sonra bir çox Azərbaycan və xarici ölkə alimlərinin məruzələri dinlənilib.

Sonda konfransda maraqlı məruzələrlə çıxış edən xarici ölkə alimlərinə sertifikatlar təqdim edilib.

# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib





İyunun 30-da Yeni Azərbaycan Partiyasının (YAP) rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov müşavirənin qarşıda duran vəzifələrə həsr olunduğunu bildirib. Bu tədbirin 11 aprel prezident seçkilərindən sonra keçirilən ilk müşavirə olduğunu deyən Əli Əhmədov qeyd edib ki, prezident seçkiləri kampaniyasında partiyanın yerli strukturları yüksək fəallıq göstəriblər. Seçki kampaniyasının bütün mərhələlərində partiyamız və onun bütün fəalları, eləcə də gənclər xüsusilə fərqləniblər. O, Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçki kampaniyasında partiyamızın üzvlərinin aktiv iştirakını yüksək dəyərləndirdiyini deyib və buna görə də dövlət başçısının təşəkkürünü YAP fəallarına, rayon və şəhər təşkilatlarına çatdırıb.

"Seçki kampaniyası dövründə ictimai rəy cənab İlham Əliyevin qələbə qazanacağını şərtləndirirdi. Çünki son 15 ildə qazanılan böyük nailiyyətlər partiyamızın sədri, dövlət başçısı İlham Əliyevin xalqımız tərəfindən birmənalı olaraq dəstəkləndiyini özündə ehtiva edirdi. Buna görə də 11 aprel prezident seçkilərində ölkə vətəndaşları bir daha Heydər Əliyev siyasətinə və bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyevə səs verdi", - deyən YAP sədrinin müavini söyləyib ki, qarşıdakı 7 il ərzində də Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam edəcək və ölkəmizə yeni-yeni nailiyyətlər qazandıracaq. Növbəti 7 il ərzində Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi daha da güclənəcək, iqtisadiyyatımız daha da inkişaf edəcək və əhalinin rifahı yüksələcək.

Bu ilin Azərbaycan üçün əlamətdar hadisələrlə zəngin olduğunu deyən Əli Əhmədov Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunmasını mühüm hadisə kimi səciyyələndirib. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən hərbi parad isə dövlətimizin və ordumuzun gücünü nümayiş etdirdi.

Seçkilərin hər bir siyasi partiyanın fəaliyyətinin əsasını təşkil etdiyini deyən Əli Əhmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası da hər bir seçkiyə daim yüksək məsuliyyətlə yanaşır. Çünki siyasi partiyaların əsas vəzifəsi seçkilərdə iştirak etmək və uğur qazanmaqdır.

Ölkəmizdə 2019-cu ildə bələdiyyə, 2020-ci ildə isə parlament seçkilərinin keçiriləcəyini diqqətə çatdıran YAP sədrinin müavini partiyamızın bu seçki kampaniyalarında da yüksək fəallıq və uğurlu nəticə göstərəcəyinə əminliyini ifadə edib.

Müşavirədə qarşıda duran vəzifələrlə əlaqədar partiyanın yerli strukturlarına tövsiyə və tapşırıqlar verilib.

# Polis Akademiyasında 2017-2018-ci tədris ilinin buraxılışına həsr edilən təntənəli mərasim olub







İyunun 30-da - Azərbaycan polisinin 100 illik yubileyi ərəfəsində Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasında 2017-2018-ci tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə iştirak edib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə general-polkovnik Ramil Usubova raport verib.

Nazir Polis Akademiyasının müəllim və müdavim heyətini əlamətdar hadisə münasibətilə təbrik edib.

Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Polis general-mayoru Nazim Əliyev bu ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib. Qeyd olunub ki, əsas təyinatı daxili işlər orqanları üçün ali hüquq təhsilli kadrların hazırlanması olan Polis Akademiyasının rəhbərliyi və pedaqoji kollektivi tədris prosesinin təkmilləşdirilməsi, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılması, onların intellektual, mədəni və mənəvi inkişafı ilə bağlı vəzifələri 2017-2018-ci tədris ilində də layiqincə yerinə yetirməyə çalışıb. Prezident İlham Əliyevin ali diqqət və qayğısı, DİN rəhbərliyinin, şəxsən daxili işlər nazirinin tələb, tövsiyə və tapşırıqlarının nəticəsi olaraq akademiyanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilib.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov təntənəli mərasimdə çıxış edərək Polis Akademiyasının təyinatına uyğun olaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla təminatında mühüm rol oynadığını vurğulayıb. Nazir 1921-ci ildə sıravi milis nəfərləri və komandir heyəti hazırlayan bu təhsil müəssisəsinin böyük inkişaf yolu keçərək akademiya səviyyəsinədək yüksəldiyini, onun məzunlarının hazırda daxili işlər orqanlarında xidmətdə olan zabit heyətinin əsas özəyini təşkil etməklə, bir çoxlarının müxtəlif rəhbər vəzifələrə irəli çəkildiyini bildirib.

Daxili işlər orqanlarında xidmətin böyük vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, bilik, elm, təhsil və təcrübə tələb etdiyini vurğulayan, polisin peşəkarlıq səviyyəsini daim artırmasını bir vəzifə kimi qarşıya qoyan ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə Azərbaycan Polisinin yaranmasının 84-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə akademiyanın yüksək standartlar səviyyəsində yenidən qurulmasına dair verdiyi konkret tapşırıqların bu ali təhsil müəssisəsinin inkişafında əhəmiyyətli rol oynadığı xüsusilə qeyd edilib.

General-polkovnik Ramil Usubov 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan quruculuq işlərinin və islahatların Daxili İşlər Nazirliyinin digər orqan və hissələri ilə yanaşı, Polis Akademiyasını da əhatə etdiyini deyib. Nazir dövlət başçısının burada görülən işlərlə iki dəfə şəxsən tanış olduğunu, dəyərli tövsiyələrini verdiyini, məhz onun böyük diqqət və qayğısı sayəsində akademiyanın maddi-texniki bazasının gücləndiyini, təhsilin keyfiyyətinin yüksəldiyini vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran daxili işlər naziri akademiyanı müvəffəqiyyətlə bitirmələri münasibətilə onları, eləcə də valideynlərini və yaxınlarını bir daha təbrik edib, tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən danışıb. General-polkovnik Ramil Usubov qeyd edib ki, 100 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan polisinin sıralarına daxil olan məzunlar sabitliyi, təhlükəsizliyi, ictimai asayişi və xalqın əmin-amanlığını qorumaq kimi əhəmiyyətli funksiyaların icraçısı olaraq fəaliyyətə başlayırlar.

Nazir Ramil Usubov təntənəli mərasim iştirakçıları adından əminliklə bildirib ki, bu gün sıralarımıza qoşulan gənc zabit korpusu xalqımızın asayişinin, təhlükəsiz həyatının etibarlı qorunması işinə layiqli töhfələr verəcək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəcək.

Tədbirin sonunda daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş məzunlara diplomları və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Əlaçı məzunlardan biri yaş kötüyünə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər "Azərbaycan Polisi" marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

# Münaqişə tezliklə ədalətli həll olunmazsa, düşmən ordumuzun gücünü hiss edəcək



İyunun 30-da müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə hərbi qulluqçuları bir daha təbrik edən müdafiə naziri hərbi paradda iştirak etmiş şəxsi heyətin, eləcə də döyüş texnikasının və aviasiya vasitələrinin heyətlərinin hazırlığını yüksək qiymətləndirib. Nazir müxtəlif ölkələrdən bayram tədbirləri ilə əlaqədar Azərbaycana gəlmiş yüksək rütbəli hərbi nümayəndə heyətlərinin yubiley mərasimlərinin təşkilindən, xüsusilə də hərbi paradın keçirilməsindən məmnun qaldıqlarını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayan general-polkovnik Z.Həsənov yüksək səviyyədə keçirilmiş bayram tədbirlərinin ölkəmizin hərbi qüdrətini və ordumuzun döyüş qabiliyyətini bütün dünyaya bir daha nümayiş etdirdiyini bildirib.

Cəbhədəki mövcud vəziyyətə toxunan müdafiə naziri qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsi, nizam-intizamı və döyüş növbətçiliyi zamanı sayıqlığının artırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini vurğulayıb.

Ali Baş Komandanın çıxışlarında səsləndirdiyi "Torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacağıq" fikrini diqqətə çatdıran general-polkovnik Zakir Həsənov deyib: "Münaqişənin həllinin uzadılması onun yenidən və daha geniş miqyasda alovlanmasına aparır. Münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsiplərinə əsasən ədalətli həll olunmalıdır. Əks təqdirdə, düşmən Azərbaycan xalqının əzmini və vətənpərvərliyini, eləcə də ordumuzun silahının gücünü öz üzərində hiss edəcək".

İyulun 2-dən 6-dək cəbhə bölgəsində keçiriləcək genişmiqyaslı təlimlərə toxunan müdafiə naziri müvafiq vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub. Nazir qeyd edib ki, təlimlərdə əsas diqqət işğal olunmuş ərazilərin azad edilməsinin müxtəlif ssenariləri üzrə qoşunların tətbiqi və müvafiq döyüş tapşırıqlarının icrası, o cümlədən düşmənin bütün hərbi infrastrukturunun məhv edilməsi üçün nəzərdə tutulan ən müasir silah və hərbi texnikanın praktiki tətbiqinə yönəldilməlidir.

# Qəbələdə keçirilən beynəlxalq yarışa və ümumrespublika birinciliyinə yekun vurulub

İyunun 30-da Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilmiş "Gənc xilasedici" VI Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinə yekun vurulub.



AZƏRTAC xəbər verir ki, yekun tədbirdə iştirak edən Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov, təhsil nazirinin müavini Firudin Qurbanov komandaların üzvləri ilə görüşərək onların sıra, fiziki və taktiki hazırlıqları, geyimləri ilə tanış olublar.

Sonra gənc xilasedicilərin nümunəvi təlim çıxışları nümayiş olunub. Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində şərti olaraq baş verən yanğının söndürülməsi, köməksiz vəziyyətdə qalan insanların xilas edilməsi əməliyyatı yerinə yetirilib.



Konqres Mərkəzində təşkil olunan mükafatlandırma mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, yarışlardan bəhs edən videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, "Gənc xilasedici və yanğınsöndürən" Ümumrespublika birinciliyi artıq 7-ci dəfədir təşkil olunur. Bu yarışların keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilər arasında sağlam həyat tərzinin təbliği, onlara şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və hərbi-vətənpərvərlik ruhunun aşılanmasıdır. Yarış ümumilikdə üç mərhələdə - rayon (şəhər), zona və ümumrespublika yarışları mərhələləri üzrə təşkil olunub. Zona mərhələsində qalib gələn komandalar ümumrespublika final yarışlarında iştirak hüququ əldə ediblər. Builki ümumrespublika birinciliyində 10 rayon və şəhərin komandaları mükafatlar uğrunda mübarizə aparıblar.

"Gənc xilasedici" VI Beynəlxalq yarışında isə Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Pakistan, Gürcüstan, Rumıniya və Qazaxıstan respublikalarının komandaları qüvvələrini sınayıblar. Moldova nümayəndə heyəti isə yarışları qonaq qismində izləyib.

Gənclər altı gün ərzində "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Divar qəzeti" mərhələləri üzrə mübarizə aparıblar. Beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Belarus, üçüncü yeri Qazaxıstan komandaları tutublar. Ümumrespublika birinciliyində isə ilk üç yerə müvafiq olaraq Bakı şəhəri Nizami rayonu 220 nömrəli tam orta məktəbin, Quba və Qax rayonlarının komandaları layiq görülüb.

Mükafatları qalib komandaların üzvlərinə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov və təhsil nazirinin müavini Firudin Qurbanov təqdim ediblər. Qaliblərə fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə xatirə hədiyyələri verilib.

Sonda uşaqların ifasında rəngarəng musiqi nömrələri və rəqslər təqdim olunub.

# Azərbaycan və Koreya arasında gömrük əməkdaşlığına dair saziş imzalanıb

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Brüsseldə ÜGT Gömrük Əməkdaşlıq Şurasının sessiyası zamanı növbəti ikitərəfli görüş keçirib.

Koreya Respublikası Gömrük Xidmətinin rəhbəri Kim Yung-Moon ilə keçirilən görüşdə Azərbaycanla Koreya arasında mövcud əlaqələrdən söhbət açılıb, əməkdaşlıq münasibətlərinin müxtəlif sferalarda, o cümlədən gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev Azərbaycan tərəfinin koreyalı həmkarları ilə gömrük işinin bütün sahələrində, xüsusilə də ticarətin asanlaşdırılması, risk analizləri, informasiya texnologiyalarının tətbiqində əməkdaşlıq əlaqələrini davam etdirməkdə maraqlı olduğunu və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Koreya Respublikası Gömrük Xidmətinin rəhbəri Kim Yung-Moon Azərbaycanla əməkdaşlığa önəm verdiklərini bildirib, eləcə də ölkələr arasında əməkdaşlığın inkişaf etdirilməsində gömrük xidmətlərinin xüsusi rolunu qeyd edib.

Görüşdə Azərbaycan və Koreya gömrük orqanları arasında əməkdaşlıqdan razılıq bildirilib və qarşılıqlı əlaqələrin bundan sonra da yüksək səviyyədə davam etdiriləcəyinə əminlik ifadə olunub.

Tərəflər xüsusilə vurğulayıb ki, Azərbaycan və Koreya arasında gömrük işinə dair imzalanması nəzərdə tutulan müvafiq sənəd əməkdaşlığın genişlənməsinə stimul verəcək, tərəflərin inteqrasiyasını sürətləndirəcək.

Sonra görüşdə "Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və Koreya Respublikası Gömrük Xidmətinin rəhbəri Kim Yung-Moon imzalayıblar.

# Gücün zəhmi

*Əvvəli 1-ci səh.*

Bakıdakı hərbi paradda bütün sadalanan texnikalar meydandan keçdikcə onları dünyanın istənilən yerində seyr edən hər bir kəs, hətta düşmənin özü Azərbaycanda necə nəhəng hərbi islahatların getdiyini aydın gördülər və anladılar ki, qələbə ordumuzun bir addımlığındadır.

Azərbaycan Prezidenti İlham Əliyev bu tədbirdəki nitqində dedi ki, bütün bunları ona görə edirik ki, ordumuz və hərbi potensialımız daha da güclənsin: "Görürük və dünyada gedən proseslər də onu göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir".

Azərbaycan Silalı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş parad bütün dünyaya dövlətimizin hərbi gücünün və intellektual səviyyəsinin ən müasir ordular səviyyəsində olduğunu göstərdi. Amma onu da demək lazımdır ki, eyni zamanda paralel olaraq Ermənistanda gözə görünməyən "hərbi parad" keçirilirdi. Bu "paradda" bir-birinin ardınca oliqarx kimi həbsə atılan erməni generalları da öz "hərbi və döyüş şücaətlərini" nümayiş etdirdilər. Onlar sərgilədilər ki, erməni silahlı qüvvələri heç vaxt heç bir azadlıq uğrunda vuruşmayıblar, müharibə onların çörək ağacı, qazanc mənbəyi olub. Kimi gəldi talayıblar, əvvəl Azərbaycan yaşayış məskənlərini, indi də özününküləri, yeri gələndə erməni əsgərinin bir tikə çörəyini də, corabını da əlindən alıblar. Ermənistan ordusu, döyüş qabiliyyətini itirib, iflic vəziyyətinə düşmüşdür.

İki il bundan əvvəl aprel döyüşlərində mövqelərimizi atəşə tutan düşmən layiqli cəzasını aldı, uğurlu əks-hücum əməliyyatı sayəsində Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi düşməndən təmizləndi.

Aprel döyüşləri Azərbaycanın hərb tarixinə şanlı qələbə kimi həkk edildi və sübut olundu ki, xalqımız işğalla heç vaxt barışmayacaq. Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı da bu yaxınlarda yüksək məharət və peşəkarlıqla ordumuz tərəfindən nəzarətə götürüldü, strateji yüksəkliklər geri qaytarıldı, kommunikasiya yolları nəzarət altına alındı.

Hər iki əməliyyat bir daha sübut etdi ki, ordumuzun gücü qat-qat artmışdır və biz istənilən hərbi əməliyyatı böyük məharətlə və peşəkarlıqla icra edə bilərik.

Erməni generallarının başları qarətə qarışsa, da indi yaxşı anlayırlar ki, Azərbaycan çox güclü ordu yaratmışdır və istənilən vaxt işğal altındakı torpaqları son qarışınadək azad etmək gücündədir.

Bakı paradında nümayiş etdirilən silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya hərbi qüdrətimizi nümayış etdirdi. İndi işğal altındakı əraziləri erməni silahlı qüvvələri nə qədər tez tərk etsələr, bir o qədər xeyirlərinə olacaq.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı və bu bayraqlar ölkənin paytaxtında hərbi paraddan keçirildi. Bu qələbə bayraqları Azadlıq meydanında dalğalananda İrəvanda xalqını soyan erməni generallarının mənzillərində axtarışlar gedirdi və bütün dünya erməni hərbi maşınının cinayətlərini seyr edirdi. İrəvanda baş verənlər erməni hərb maşınının intiharı deməkdir.

İndi heç kimdə şübhə yoxdur ki, Azərbaycan Prezidentinin dediyi kimi "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Ermənistan Bakıda keçirilən hərbi paraddan şoka düşüb. Bəzi erməni KİV-i susur, bəziləri isə ağıllarına gələn məntiqsiz çıxışlar edirlər. Onları vahimələndirən paradın arxasınca Azərbaycanda 20 min nəfərlik hərbçinin qatıldığı təlimlərin keçirilməsinin planlaşdırılmasıdır. Beysbol kepkasında Azərbaycan ordusunun zəifliyindən və sakit durmasından danışan "demokrat" Paşinyan da artıq neçə gündür ki, susur. Susur ona görə ki, Bakı paradında nümayiş etdirilən İsrail, Türkiyə, Belarus və Rusiyadan alınan silahların keçdiyi meydan soyumamış, cəsarətli Azəraycan əsgərləri onları poliqonlarda sınaqdan keçirməyə tələsirlər.

Erməni hərbi maşınının tam süquta uğradığı və nüfuzunu itirdiyi bir zamanda erməni KİV-i bizi əvvəlki kimi hədələməkdən daha çox ölkələri daxilində hərbçilərə qarşı qəzəblənən ictimai rəyi sakitləşdirməyə çalışırlar. Paşinyana istinad edərək yazırlar ki, Qarabağ probleminin müharibə yolu ilə həlli mümkün deyil. Amma rejim anlayır ki, Paşinyanın Azərbaycana elə də təsir imkanları yoxdur, tələbləri də lətifə kimi səslənir.

***Bahadur İMANQULİYEV,***
***fotolar Fərman BAĞIROV və***
***Ağaəli MƏMMƏDOVundur,***
***"Azərbaycan"***

# *Nevres Hürriyyet AYDOĞAN:* "Naxçıvanda turizmin inkişafı üçün geniş imkanlar var"

"Naxçıvanın zəngin turizm potensialına malik olduğunu əyani şəkildə gördüm. Naxçıvanın tarixi və mədəni abidələrlə zənginliyi qədim diyarda turizmin inkişafı üçün geniş imkanlar açır".



Bu sözləri AZƏRTAC-a Naxçıvan şəhərində keçirilən III Beynəlxalq Gənclik Araşdırmalar Konqresinin iştirakçısı, Muğla Sıtkı Koçman Universitetinin rektor müavini, tibb fakültəsinin dekanı, professor Nevres Hürriyyet Aydoğan deyib.

"Bu tədbirin Naxçıvanda keçirilməsində məqsəd buradakı ali təhsil ocaqları ilə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi, təhsil sahəsində məlumat mübadiləsi aparmaqdan ibarətdir" - deyən Nevres Hürriyyet Aydoğan qeyd edib ki, Naxçıvandakı ali təhsil ocaqlarında olduğumuz müddətdə qədim diyarda təhsilə böyük diqqət yetirildiyini gördük.

Nevres Hürriyyet Aydoğan deyib: "Bu, mənim Naxçıvana ilk gəlişimdir. Ancaq Nuhun yurduna ayaq basdığım andan özümü doğma vətənimdə olduğum kimi hiss etdim. Bunun əsas səbəbi naxçıvanlıların göstərdiyi qonaqpərvərlik və mehriban münasibətdir. Tədbirin təşkilində zəhmət çəkən hər kəsə minnətdarlığımı bildirirəm".




# XXI Dünya çempionatı

# KRALIN ÇÖKÜŞÜ



**Fransa - Argentina - 4:3**
**Qollar:** Antuan Qrizman, 13 (pen.), Anxel Di Mariya, 41, Qabriel Merkado, 48, Benjamin Pavard, 57, Kilian Mbappe, 64, 68, Serxio Aquero, 90+3.
*Kazan, "Kazan Arena"*

Dünən futbol üzrə dünya çempionatında 1/8 final mərhələsinə start verilib. Günün ilk matçında Fransa və Argentina yığmaları üz-üzə gəliblər.

Argentina çempionatın favoritləri sırasında adıçəkilən, lakin mundial başladıqdan sonra nümayiş etdirdiyi futbolla sona kimi getməyəcəyi məlum olan komandalardan biri idi. Qrup mərhələsindən çətinliklə 1/8 finala vəsiqə qazanan Cənubi Amerika təmsilçisinə Fransa "evə təyyarə biletlərini sifariş edə bilərsən" dedi. Özü də mükəmməl futbol oynayaraq, Messini çarəsiz qoyaraq... Və yekunda sübut olundu ki, Argentina kimi tarixi bir komanda Messinin oyuncağı olmamalı, onun sifarişi əsasında heyət qurulmamalıdır.

İranlı referi Əlirza Fəganinin start fitindən sonra görüşə fransızlar daha yaxşı başladılar. Aşkar cinah hücumlarına üstünlük vermələri və hava mübarizələrinin çoxunda qalib gəlmələri ilə bu görüşdə də diqqət çəkdilər. Hazırkı mundialın ən yaşlı komandası Argentina isə topa daha çox nəzarət etməyə çalışsa da, heyətində Lionel Messi kimi futbolçu yer alsa da, tətbiq edilən pressinq oyun qurmalarına maneçilik törədir və xətlər arasında əlaqənin itməsinə səbəb olurdu.

İtirilən hər top isə fransızların əks-hücumları ilə nəticələnirdi. Belə hücumlardan birində driblinq edərək argentinalıların cərimə meydançasına daxil olan Kilian Mbappenin qarşısı kobudluqla alınıb. Argentina yığmasının qapısına təyin olunan penalti zərbəsini Antuan Qrizman dəqiq yerinə yetirərək komandasını hesabda irəli çıxarıb. Hücum qurmaqda çətinlik çəkən Argentina Anxel Di Marianın uzaq məsafədən vurduğu qolla hesabda tarazlığı bərpa edib.

Fasilədən sonra Lionel Messinin qapıya vurduğu top argentinalı Qabriel Merkadoya toxunaraq istiqamətini dəyişib və qapıya daxil olub - 1:2. Bundan sonra hücumlarının sayını artıran Fransa 57-ci dəqiqədə Benjamin Pavardın qolu ilə hesabı bərabərləşdirib, 64-cü və 68-ci dəqiqələrdə dubl edən Kilian Mbappenin qolları sayəsində isə hesab arasındakı fərqi iki topa çatdırıb - 4:2.

Qarşılaşmanın əsas vaxtına artırılan 3-cü dəqiqədə Aquero bu qollardan birinin əvəzini çıxıb - 4:3.

Beləliklə, 4:3 hesabı ilə qalib gələn Fransa 1/4 finala yüksələn ilk komanda oldu və bu mərhələdə Uruqvay millisi ilə qarşılaşacaq.

# KAVANİ ŞOU

**Uruqvay - Portuqaliya - 2:1**
**Qollar:** *Edinson Kavani, 7, 62 - Pepe, 55*
*Soçi, "Fişt Stadionu"*

İyunun 30-da 1/8 final mərhələsinin 2-ci oyunu keçirilib. Uruqvay-Portuqaliya matçında azarkeşlər meydanın hər bir nöqtəsində gərgin mübarizənin şahidi oldular.

Uruqvay 1/8 finala 100 faizli nəticə ilə çıxsa da, rəqiblərinin digər qruplara nisbətən daha zəif olduğunu vurğulamaq lazımdır. Bununla belə, yoldaşlıq görüşlərini də nəzərə almaqla, uruqvaylıların bu il keçirdikləri 6 oyunun hamısında qələbə qazanmaları və bu qarşılaşmalarda qapılarından top buraxmamaları diqqət çəkirdi (11-0).

Uzun ötürmələrə üstünlük verən Portuqaliya millisi isə cərimə meydançasının kənarından hər imkanda rəqib qapısına zərbə vurmağa çalışırdı. Meksikalı baş hakim Sezar Arturo Ramosun idarə etdiyi görüşə də portuqaliyalılar eyni taktika ilə başladılar. Lakin görüş ərzində demək olar ki, həmin oyun üslubunu nümayiş etdirə bilmədilər. Çünki Uruqvay millisi kompakt futbol oynayaraq və güclü pressinq tətbiq edərək Ronaldunun topa sahib olmasına imkan vermədi. Nəticədə Portuqaliya seçməsi ilk hissəni təhlükəli epizod yaratmadan başa vurdu.

Uruqvay millisi isə tətbiq edilən təzyiq nəticəsində bir neçə dəfə qol vurmaq imkanına malik oldu və ilk hissədə bunlardan birindən yararlana bildi. Belə ki, Kavani meydançanın mərkəzində güclü pressinq nəticəsində topu alaraq Suarezə ötürdü. Daha sonra cərimə meydançasına şığıyaraq onun göndərdiyi topu başla qapıdan keçirdi. Əsl futbol məktəblərində dərsliklərə salınacaq bir qolun şahidi olduq.

Fasilədən sonra hücumda çoxalmağa çalışan Portuqaliya Pepenin vurduğu qol sayəsində hesabda tarazlığı bərpa etdi. Lakin müdafiədəki kobud səhv növbəti dəfə Portuqaliyaya baha başa gəldi və nəticədə Kavani özünün və komandasının 2-ci qolunu vurdu. Bu, oyunda son qol oldu və Uruqvay adını 1/4 finala yazdırdı.

Beləliklə, iyulun 6-da keçiriləcək 1/4 final matçında Uruqvay Fransa yığması ilə qarşılaşacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# YERRO ehtiyatlı danışdı



**"Bilirik Rusiya millisi necə oynayır. Onlar cinahlardan hücumlar qururlar. Bu da onların çox təhlükəli rəqib olması deməkdir".**

**Qol.az-ın xəbərinə görə, bu sözləri İspaniya millisinin baş məşqçisi Fernando Yerro "Marca"ya açıqlamasında deyib.**

**O, DÇ-2018-in 1/8 finalında Rusiya ilə keçiriləcək görüş barədə fikirlərini bildirib: "Onu da unutmayaq ki, Rusiya öz meydanlarında, çoxsaylı azarkeşlərinin qarşısında oynayacaq. Futbolçularımız çox məşq ediblər. Onlar səbirsizliklə pley-off oyununu gözləyirlər".**

**Qeyd edək ki, İspaniya-Rusiya oyunu bu gün Bakı vaxtı ilə saat 18:00-da başlayacaq.**

## DÇ-2018-in TƏQVİMİ

***1/8 FİNAL***

**1 iyul**

18:00 İspaniya - Rusiya
*Moskva. "Lujniki stadionu"*

22:00 Xorvatiya - Danimarka
*Nijni Novqorod*

**2 iyul**

18:00 Braziliya - Meksika
*Samara*

22:00 Belçika - Yaponiya
*Rostov-Don*



# MBAPPE pullarını xeyriyyəçiliyə xərcləyəcək



**Fransa yığmasının hücumçusu Kilian Mbappe Rusiyada keçirilən dünya çempionatında iştirakına görə bonus şəklində qazanacağı bütün pulları xeyriyyəçiliyə xərcləmək barədə qərar qəbul etmişdir.**

19 yaşlı futbolçu turnirdə milli komandanın formasında keçirdiyi hər oyuna görə 20 min avro alır. Bu barədə "Vesti.ru" saytı xəbər verir.

Mbappe həmçinin gəlirlərinin bir hissəsini Fransa Futbol Federasiyasına verəcək. Bu məbləğ 30 faiz təşkil edir və oyunçularla komandanın əməkdaşları arasında bölünür.

Hücumçunun fikrincə, futbolçular öz ölkələrinin şərəfini pulsuz da qoruya bilər.

Fransa millisi dünən Kazanda 1/8 final matçında Argentina yığması ilə qarşılaşmış və 4:3 hesabı ilə qələbə qazanmışdır. Bu oyunda Mbappe iki dəfə fərqlənmişdir.

# MARADONANIN günlük qazancı kəsildi



**FİFA DÇ-2018-in oyunlarını Rusiyada canlı izləyən əfsanəvi futbolçu Diyeqo Maradonaya xeyli miqdarda pul ödəyirdi.**

"Daily Mail" nəşrinin verdiyi xəbərə görə, veteran hücumçu FİFA prezidenti Canni İnfantino tərəfindən yaradılmış "əfsanələr qrupu"nun ən bahalı üzvlərindən biridir. FİFA dünya çempionatı zamanı Rusiyada qaldığı hər gün üçün Maradonaya 11 min avro ödəniş edirdi.

Bundan başqa, Maradonanın mənzil, nəqliyyat və digər xərcləri də FİFA tərəfindən qarşılanırdı. Lakin Beynəlxalq Futbol Federasiyası yarış zamanı davranışına görə ona qarşı sanksiyalar tətbiq etmək qərarına gəlmişdi. "Diario Correo" qəzetinin xəbərinə görə FİFA Argentina-Nigeriya (2:1) oyunu zamanı etdiyi ədəbsiz hərəkətlərə görə Maradonanı maliyyə dəstəyindən məhrum etmişdir.

# İsveç hökuməti boykotu dayandırdı

**İsveçli nazirlər dünya çempionatının 1/8 finalında İsveçrəyə qarşı keçiriləcək oyuna stadiondan tamaşa etməyi planlaşdırırlar. Qarşılaşma iyulun 3-də Sankt-Peterburqdakı eyniadlı arenada baş tutacaq. Bu barədə "Aftonbladet" qəzeti xəbər verir.**

İsveçin xarici işlər naziri Marqot Valstryomun dediyinə görə, boykot çempionatın ancaq açılış mərasiminə şamil olunurdu. Buna baxmayaraq, hökumət indiyədək yarışı boykot etmişdir. "Biz Skripal işi ilə əlaqədar Böyük Britaniya ilə həmrəylik nümayiş etdirərək dünya çempionatının açılış mərasiminə yollanmadıq. Biz bunu digər ölkələrlə birlikdə etdik. İndiki vəziyyətdə isə komandamızın dəstəklənməsinin vacib olduğunu hesab edirəm. Bu qərarı məsləhətləşmələrdən sonra qəbul etdik. Məsələni Danimarka nümayəndələri ilə də müzakirə etmişdik" - deyə Valstryom bildirmişdir.

Bundan əvvəl İsveçin idman naziri Annika Strandhell vurğulamışdır ki, Rusiyaya səfər etmək fikrində deyil: "Rusiyadakı siyasi vəziyyətdən, xüsusilə demokratiya və insan hüquqlarına riayət olunması nöqteyi-nəzərindən çox narahatam. Bizim hökumət dünya çempionatının açılış mərasiminə getməməyi xahiş etmişdir. Mən Rusiyada hansısa bir yerə getməyi planlaşdırmıram".



# SON AZAD OLUNACAQMI?



**DÇ-2018-in 2-ci turunda Meksikaya uduzan (1:2) Cənubi Koreya millisinin kapitanı Son Honq Minin ağlayarkən çəkilən şəkli xarici mətbuatın gündəmindədir.**

Cənubi Koreyanın uduzaraq pley-offa vəsiqə şansını itirməsi "Tottenhem"li futbolçunu ikiqat məyus edib. Məsələ burasındadır ki, hərbi xidmətə çağırılan 26 yaşlı yarımmüdafiəçinin mundiala görə möhlət hüququ var idi. Ancaq bunun üçün onun komandası ən azı 1/8 finala yüksəlməli idi. Artıq Cənubi Koreya turnirlə vidalaşdığından futbolçu 21 aylıq hərbi xidmətə yollanmalıdır.

Ancaq Honq Minin bir şansı da var. Koreya hökuməti DÇ-2018-də Almaniyanı məğlub etdikləri matçın son dəqiqəsində qol vuran futbolçuya Asiya oyunlarına qatılmaq şansı verə bilər.

Cənubi Koreya qanununa görə, idmançının olimpiya və ya Asiya oyunlarında medalı varsa, əsgərlikdən imtina etmək hüququ qazanır.

Qeyd edək ki, Cənubi Koreyada hərbi xidmətə 28 yaşına çatmamış şəxslər yollanır.

# Azərbaycana nüfuz gətirən möhtəşəm layihələr

*Əvvəli 1-ci səh.*

Bu günlərdə açılışı olan "Cənub qaz dəhlizi" göstərdi ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərə doğru inamla addımlayan, aydın və düşünülmüş strategiyası, dəqiq siyasəti olan dövlətdir. Eyni zamanda bu tarixi hadisə rəsmi Bakının 1994-cü ildən həyata keçirdiyi enerji siyasətinin məntiqi nəticələrindən biri və həm də uğurlu davamıdır.

"Cənub qaz dəhlizi" layihəsinin uğurla reallaşmasının əsas səbəbi təbii ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasi-diplomatik fəaliyyətdir. Prezident İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb. Bu gün ölkəmiz mühüm geosiyasi məkan kimi regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycanın geosiyasi çəkisi sürətlə artır, dövlətimiz regionda sabitləşdirici faktor kimi çıxış edir.

Azərbaycanın başa çatdırdığı hər bir enerji və nəqliyyat layihəsi həm də ölkəmizin böyük siyasi-diplomatik uğurlarıdır. Bu uğur respublikamızın dünyada və Qafqazda söz sahibinə çevrilməsi ilə yanaşı, hər bir məsələdə qətiyyətli mövqeyindən, əməkdaşlıq əlaqələrində etibarlı tərəfdaş olmasından və beynəlxalq birlikdə yüksək nüfuz sahibinə çevrilməsindən irəli gəlir. Bütün bunlar həm də onu göstərir ki, Prezident İlham Əliyevin lider qətiyyəti ilə Azərbaycan tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yeridir. Uğurla reallaşan bu siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# ABŞ Dövlət Departamenti "Cənub qaz dəhlizi"nin vacibliyini vurğulayıb

ABŞ Dövlət Departamentinin nümayəndəsi Hizer Noyert Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsinin vacibliyi barədə bəyanatla çıxış edib.




Bəyanatda deyilir ki, bu həftə Vaşinqtonda keçirilmiş Dünya Qaz Konfransı enerji resurslarının şaxələndirmə matrisindən istifadə edən ölkələrin və regionların, bu resursların təchizat marşrutlarının və mənbə ölkələrinin enerji təhlükəsizliyinin əhəmiyyətini daha möhkəmləndirir. Noyert vurğulayıb ki, ABŞ Avropanın bir təchizat mənbəyindən asılı olmasının əleyhinədir. Bəyanatda xüsusi qeyd edilir ki, Birləşmiş Ştatlar 2020-ci ilə qədər Xəzərdən çıxarılan Azərbaycan qazını Avropa ölkələrinə nəql edəcək "Cənub qaz dəhlizi" layihəsi üzrə Azərbaycanda və Türkiyədə qazanılmış tarixi tərəqqini yüksək qiymətləndirir.

Dövlət Departamentinin nümayəndəsi onu da qeyd edib ki, ABŞ bu həftənin əvvəlində Dünya Qaz Konfransında Polşanın 2022-ci ildən etibarən Amerikadan maye təbii qaz idxalı barədə 20 illik saziş imzalanması barədə bəyanatını alqışlayır. Noyert daha sonra bildirib ki, Birləşmiş Ştatlar bütün dünyada öz müttəfiqlərinin və tərəfdaşlarının enerji təhlükəsizliyinə, energetikanın şaxələndirilməsinə şərait yaradan digər layihələri, o cümlədən Xorvatiya və Ruminiyanın energetika layihələrini də dəstəkləyir.

***AZƏRTAC***

# ADA Universitetinin Aİ üzrə Yay Məktəbi gənclərin beynəlxalq siyasətə dair müzakirə platformasıdır

Bu həftə ADA Universitetində Avropa İttifaqı üzrə IV Yay Məktəbi işinə başlayıb. İkihəftəlik təlim proqramı geniş beynəlxalq iştirakçı qrupu cəlb edib - Avropa, Asiya və Amerika qitəsindən proqrama qatılan gənclər hazırda ali təhsilin müxtəlif pillələrindədirlər.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, IV Yay Məktəbinin açılış mərasimində çıxış edən prorektor Fariz İsmayılzadə Avropa İttifaqı üzrə Yay Məktəbinin gəncləri bu beynəlxalq qurumla bağlı maarifləndirdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, interaktiv şəkildə qurulan dərslər zamanı gənclər həm də dünyanın bu vacib bölgəsinin beynəlxalq siyasətinə dair fikirlərini söyləyə bilirlər. Yay Məktəbi üçün məhz Azərbaycandakı ADA Universitetinin seçilməsi təsadüfi deyil - qitələrin geostrateji kəsişməsində yerləşən ölkəmizdə Avropa İttifaqında cərəyan edən hadisələri izləyir, onların bilavasitə iştirakçısı oluruq.

Prorektor Fariz İsmayılzadə iştirakçılara uğurlu təlimin və burada qurduqları yeni təmasların onların gələcək karyeralarında faydalı olacağına əminliyini ifadə edib.

Yay Məktəbinin təlim proqramı bu dəfə "Avropa İttifaqı xarici siyasəti geosiyasi kontekstdə" mövzusuna həsr olunub. İştirakçılar bu günlərdə xarici siyasətə aidiyyəti olan Avropa İttifaqı təsisatları, onların qərar qəbul etmə mexanizmləri ilə yaxından tanış olmaqla yanaşı, hazırda Avropa İttifaqı cəmiyyətinin gündəmində duran vacib ictimai məsələlər ətrafında fikir mübadiləsi aparır, bu məsələlərin tarixi köklərini araşdırırlar. Dərslər zamanı Avropa İttifaqı-Türkiyə, Avropa İttifaqı-Azərbaycan, eləcə də Şərq Tərəfdaşlığı proqramının digər ölkələri ilə münasibətlər nəzərdən keçirilir, ittifaqın genişlənməsi perspektivləri təhlil olunur. IV Yay Məktəbinin təlimçi qrupuna ADA Universitetinin professor heyətindən başqa, İtaliyanın Bolonya Universiteti, Almaniyanın Dortmund Texniki Universiteti, Bilefeld Universiteti alimləri daxildir. Dərslərdə müzakirə olunan məsələlərə dair praktiki baxışla, həmçinin Avropa İttifaqının Bakıdakı diplomatik nümayəndəliyinin üzvləri bölüşürlər.

Yay Məktəbi ADA Universitetində 2013-cü ildən fəaliyyət göstərən Avropa İttifaqı Məsələləri üzrə Bilik Mərkəzinin təklif etdiyi sertifikat proqramıdır. Mərkəz ölkə ictimaiyyətinin Avropa İttifaqı haqqında biliklərini təkmilləşdirmək məqsədilə dövlət qulluqçuları, tələbələr, şagirdlər də daxil olmaqla, ictimai qruplar üçün təhsil və təlim kursları həyata keçirir. ADA Universiteti "ASAN Radio" 100 FM dalğasında Avropa İttifaqı-Azərbaycan münasibətlərinə həsr edilən həftəlik "Avropa-dASAN" proqramı yayımlayır.

# Aqrar sektorda strateji islahatlar inkişafa köklənib

*Əvvəli 1-ci səh.*

Həm də bu sərmayələr hesabına ölkədə yaradılması nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilmişdir. Bu yaxınlarda "Region Aqropark"ı istifadəyə verildi. Ondan əvvəl isə Yalama, Şəmkir və Cəlilabad rayonlarında da aqroparklar fəaliyyətə başladı. Ümumi ərazisi 191 min hektar olan aqroparkların yaradılmasına isə 1,4 milyard manat sərməyə qoyulacaq. Bu, əlbəttə ki, ciddi rəqəmdir. Yeni texnologiyaların, qabaqcıl dünya təcrübəsinin tətbiq edildiyi nəhəng aqroparkların yaradılması ölkənin aqrar simasını dəyişməkdədir.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr uçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatında orta və uzunmüddətli dövrlər üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Bu baxımdan ölkədə aqroparkların yaradılmasında investor kimi həm sahibkarların, həm də dövlətin iştirakı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti İlham Əliyev Goranboyda aqroparkın açılışındakı çıxışında dövlət-özəl sektor partnyorluğunu yüksək qiymətləndirərək 45 aqroparkın yaradılmasının kənd təsərrüfatı məhsullarının istehsalına böyük təkan verəcəyini bildirmişdir. Çünki: "...burada ən müasir texnologiyalar tətbiq olunur, o cümlədən müasir suvarma texnologiyaları, pivot suvarma sistemləri quraşdırılır. Bu sistemlərin tətbiqi Azərbaycanda geniş vüsət alacaq".

Ümumiyyətlə, aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapacaq, yerli istehsal inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcək.

Yalnız bir baramaçılığın timsalında bunu müşahidə etmək mümkündür. 2015-ci ildə cəmi bir rayonda 725 kiloqram yaş barama istehsal edilmişdisə, 2016-cı ildə 24 rayon üzrə 70, 2017-ci ildə isə 30 rayonu əhatə etməklə 244 ton yüksək keyfiyyətli yaş barama istehsal olunmuşdur. Bu isə ölkə üzrə barama istehsalının 2015-2017-ci illər arasında 337 dəfə artması deməkdir.

Onu da qeyd edək ki, bu sahədə xarici təcrübə ciddi öyrənilir, baramaçılığın müasir texnologiyaları tətbiq edilir. Yeni emal sahələrinin yaradılması, ipəkçiliyin inkişaf modelinin hazırlanması istiqamətində birgə araşdırmalar aparılır, xarici ekspertlər cəlb edilir, ipək məhsulların ixrac imkanlarının genişləndirilməsi araşdırılır. Bütün bunların sayəsində gələn il barama istehsalını ən azı 1000 ton səviyyəsinə qaldırmaq mümkün olacaq. İndiki inkişaf tempi isə onu göstərir ki, 2025-ci ildə barama istehsalını 6 min tona çatdırmaq mümkündür.

Strateji Yol Xəritəsinin 2016-cı ilin sonunda təsdiq edilməsinə baxmayaraq, qazanılan nailiyyətlər onilliklərin uğuruna bərabərdir. Bu xəritədə qeyd edilmiş prioritetlər üzrə bəzi tədbirlərin əsas fazasının 2020-ci ildən sonrakı dövrdə həyata keçiriləcəyi nəzərdə tutulsa da, iki ilə yaxın müddət ərzində heyrət doğuran islahatlar həyata keçirilmişdir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Xırmana girməyincə taxıl sənin deyil"

*Əvvəli 1-ci səh.*









Cari ilin məhsulu üçün 2017-ci ilin payızında 29 min 730 hektarda şum çıxarılıb. 21 min 650,5 hektar buğda, 6930 hektar arpa, 161 hektar çovdar olmaqla 28 min 741,5 hektar sahədə səpin aparılıb. Bu da keçən illə müqayisədə 435 hektar çoxdur. 2 min tondan çox fosforlu gübrə gətirilərək istehsalçılara satılıb. Payızlıq əkinlərə yemləmə gübrəsinin verilməsi üçün "Aqroservis" rayon filialı və "Aqrokimya" MMC tərəfindən 1730 ton azotlu gübrə, 3548 kiloqram çeşidli herbisid gətirilib. Həmin məhsullar istehsalçılara 70 faiz güzəştlə satılıb. H.Həsənovun sözlərinə görə, aparılan aqrotexniki tədbirlərin nəticəsidir ki, sahələrdən bol məhsul gözlənilir.

Öyrəndik ki, iyun ayının 2-si və 18-ində baş vermiş leysan yağışları, həmçinin dolu nəticəsində rayonun ümumi əkin sahəsinin 4550 hektardan çox hissəsinə ziyan dəyib. Bundan əlavə, 10 hektardan çox taxıl sahəsini sel məhv edib: "Buna baxmayaraq, payızlıq dənli bitkilərin əkin sahələrindən orta hesabla 32 sentnerdən çox məhsul gözlənilir. Rayonun ən böyük taxılçılıq təsərrüfatları olan və rayonun aran zonasında yerləşən Qubaxəlilli, Kəlbənd, Gəraybəyli, Zərnava, Mollaisaqlı və Kürdmaşı kəndlərində biçin başlanıb".

Rayonda fəaliyyət göstərən 5 toxumçuluq təsərrüfatının 562 hektar əkin sahəsində aprobasiya aparılıb. Həmin toxumluq sahələrinin hər hektarından təxminən 35-45 sentner arası məhsul gözlənilir ki, bu da rayonun toxuma olan tələbatının 20-30 faizini ödəyir.

Ölkəmizdə yeganə kollektiv təsərrüfat olan İvanovka kəndində Nikitin adına kolxozun sədri Vasiliy Novoseltsevlə görüşüb söhbət etdik. Müsahibimiz bildirdi ki, bu ilin məhsulu üçün ümumilikdə 3 min 28 hektarda taxıl əkiblər. Onun 1000 hektarı arpa, qalanı buğdadır. Biçinə iyunun 22-dən başlanıb. Hazırda arpa biçilir. 154 hektardan 360 ton məhsul toplanıb. Orta məhsuldarlıq hələlik 24-26 sentnerdir. Hazırda sahədə 4 kombayn işləyir. Biçinin qızğın dövründə 18 kombayn lazım gələcək.

Biçin sahəsində kolxoz sədri bizi 82 yaşlı Qriqori Matveyeviç Minnikovla tanış etdi. Qriqori Matveyev 1964-cü ildən kombaynda işləyir. Əvvəl sıravi kolxozçu olub. Ötən illər ərzində uğurlarla yanaşı, çətinlikləri də az olmayıb. Onun öhdəsindən gəlməyi bacarıb. Hazırda işindən də məmnundur, dolanışığından da.

81 yaşlı Mixail Matveyeviç Panin isə qaynaqçı-sürücüdür. Deyir ki, valideynləri də bu kolxozun inkişafı üçün çalışıb. O, 1954-cü ildən əmək fəaliyyətinə başlayıb. Son 30 ildən isə hazırkı işindədir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Əfqanıstanda barışıq bitdi

Əfqanıstan Prezidenti Əşrəf Qani "Taliban" hərəkatı ilə barışığın bitdiyini elan etmişdir. Silahlı qüvvələrin əməliyyatları bərpa olunacaq. Bu barədə "TOLO News" telekanalı xəbər verir.

Qaninin dediyinə görə, "Taliban"ın bir çox üzvü sülh istəyir və barışıq sübut etdi ki, "Taliban" müharibədən yorulmuşdur. Millət birləşməyə hazır olduğunu nümayiş etdirmişdir.

Əfqanıstan Prezidenti bildirmişdir ki, hökumət "Taliban" hərəkatını silahlı qruplaşmadan siyasi qruplaşmaya çevirmək istəyir və dinc prosesin qurulması üçün bütün səylərdən istifadə edir. Qani həmçinin demişdir ki, Əfqanıstan hökuməti taliblər üçün təhlükəsiz zonalar yaratmaq, yaxud əraziləri kiməsə təhvil vermək niyyətində deyil.

Xatırladaq ki, bundan əvvəl Əşrəf Qani Ramazan bayramı ilə əlaqədar birtərəfli atəşkəs elan etmişdir. Bundan sonra "Taliban" da üç gün müddətinə atəşi dayandırmışdır. Hökumət barışığı daha on gün uzatmışdır. Öz növbəsində "Taliban" bu təşəbbüsü dəstəkləmək niyyətində olmamışdır.

## Braziliya Ali Məhkəməsi eks-prezident Lulanı azadlığa buraxmadı

Braziliyanın Federal Ali Məhkəməsi eks-prezident Luis İnasiu Lula da Silvanı azadlığa buraxmaqdan imtina etmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Bu ilin aprelindən Lula korrupsiya ilə bağlı iş üzrə həbs cəzası çəkir və həmin iş çərçivəsində o, yanvar ayında 12 il 1 ay müddətinə azadlıqdan məhrum edilmişdir.

Ali Məhkəmənin üzvü Aleşandri di Morayeş bildirmişdir ki, müdafiə tərəfinin vəsatətlərinə baxılması üçün heç bir əsas yoxdur. Hakim həmçinin vəkillərin Lulanın azadlığa buraxılması ilə bağlı əvvəlki vəsatətlərinə baxmaqdan imtina etmişdir.

Xatırladaq ki, Braziliya Ali Məhkəməsinin üzvü Edson Fakin aprelin əvvəlində eks-prezidentin həbsxanaya yerləşdirilməsi barədə verdiyi qərardan apelyasiyasını rədd etmişdir. Bundan sonra Lula təslim olmuş və Kuritiba şəhərindəki həbsxanaya göndərilmişdir.

## Suriya daha bir humanitar fəlakət qarşısında



Ötən həftə Suriya hökumət ordusunun başladığı hücum zamanı ölkənin cənubunun 120 mindən çox sakini evini tərk etmək məcburiyyətində qalmışdır. Təkcə son bir neçə gün ərzində məcburi köçkünlərin sayı üç dəfə artaraq 160 minə çatmışdır.

Bu barədə BMT-nin Qaçqınların İşi üzrə İdarəsinin məlumatına istinadən "Röyter" agentliyi xəbər verir. Həyəcan təbili çalan hüquq müdafiəçiləri humanitar fəlakətin yaxınlaşdığını bildirirlər.

Bu arada agentlik İordaniya rəhbərliyindəki mənbələrinə istinadən xəbər verir ki, yaranmış şəraitdə qarşıdurma tərəfləri barışığa hazırdırlar. ABŞ Dövlət Departamenti bu məlumatı hələ ki təsdiqləmir. Bildirilir ki, regiondakı ağır vəziyyət Rusiya hərbçilərinin dəstəyi ilə Suriya hökumət ordusu tərəfindən edilən bombardmanlarla mürəkkəbləşir.

## Merilənd öldürülmüş jurnalistlərlə vidalaşır

Amerikanın Merilənd ştatında "Capital Gazette" qəzeti redaksiyasına silahlı hücum nəticəsində həlak olmuş 5 jurnalistin anım aksiyası keçirilmişdir. Yüzlərlə adam Annapolis şəhərində matəm yürüşündə iştirak etmişdir. Bu barədə "Euronews.ru" saytı xəbər verir.

ABŞ-da qəzet redaksiyasında baş vermiş hadisəni ölkə tarixində jurnalistlərə qarşı edilən ən iri hücumlardan biri kimi qiymətləndirirlər. Polisdən bildirmişlər ki, silahlı şəxs mümkün qədər çox adamı öldürməyə cəhd etmişdir. O, qarşısına çıxan hər kəsə atəş açırmış.

Saxlanılan qatil 38 yaşlı Cared Ramosdur. Onun bir neçə il qəzetlə məhkəmə çəkişmələri davam etmiş və nəticədə uduzmuşdur. Hücumdan əvvəl redaksiyaya internetlə hədələr daxil olmuşdur.

## Liviya sahilləri yaxınlığında 106 miqrant itkin düşdü



Aralıq dənizində Liviyanın paytaxtı Trablisin şərq hissəsində miqrantları daşıyan növbəti qayıq qəzaya uğramışdır. Bu barədə "La Repubblica" qəzeti xəbər verir.

Məlumata görə, Liviya sahil mühafizəsi göyərtədə olan 120 nəfərdən ancaq 14-nü xilas edə bilmişdir. Digərləri itkin düşmüş hesab olunur.

Fəlakətin mümkün səbəbi kimi gəminin həddən artıq yüklənməsi göstərilir. Hadisə baş vermiş rayonda axtarış-xilasetmə əməliyyatı davam edir.


## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" ASC tərəfindən tikinti-təsərrüfat mallarının satın alınması məqsədi ilə keçirilən açıq tenderdə "Trade Point" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

***Tender komissiyası***


# Ağdam rayonunun işğal altındakı ərazilərində yanğın hadisəsi qeydə alınıb

"Azərkosmos" ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə "Azersky" peyki vasitəsilə Ermənistan tərəfindən törədilmiş yanğınların monitorinqini aparıb. Səhmdar cəmiyyətdən AZƏRTAC-a bildiriblər ki, yanğınlar əsasən cəbhənin Ağdam rayonu istiqamətində törədilib. İyunun 29-da Ağdam rayonunun işğal altında olan yaşayış məntəqələri üzrə ümumilikdə 280 hektar ərazinin yandığı aşkar edilib.

Hazırda monitorinqlər davam etdirilir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 86 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 86 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altındakı Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qaraxanbəyli və Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universitetinin rektorluğu Cinayət prosesi kafedrasının müdiri, professor Firuzə Abbasovaya anası

**MAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanlığı və professor-müəllim heyəti Cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firuzə Abbasovaya anası

**MAYA ABBASOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8151
Sifariş 1882